

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 111 (24.248)

22 iyun 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


2023-cü il "Heydər Əliyev İli"dir

## Azərbaycanda demokratik seçki ənənəsinin formalaşmasında Heydər Əliyev irsi



*Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarixboyu arzuladığı milli dövlətçilik amallarını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilmişdir.*

Müasir hüquqi, demokratik dövlətin, xalqın iradəsinə əsaslanan hakimiyyət orqanlarının, səmərəli özünütəşkil mexanizmlərinə malik cəmiyyətin mövcudluğunu azad və ədalətli seçkilərsiz təsəvvür etmək mümkün deyildir.

Xalqımızın dahi oğlu Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra ictimai-siyasi sabitliyin bərqərar edilməsi ölkə həyatının bütün istiqamətlərində, o cümlədən siyasi-hüquqi sahədə köklü islahatların aparılmasına imkan yaratdı. Ötən dövr ərzində Azərbaycan Respublikasının seçki sistemi müxtəlif mərhələlərdən keçərək inkişaf etmiş, konstitusiya təminatları da daxil olmaqla, qanunvericilik və təcrübə baxımından təkmilləşdirilmiş, beynəlxalq standartlara uyğunlaşdırılmışdır. İndiyə qədər ölkəmizdə keçirilmiş prezident, parlament, bələdiyyə seçkiləri, ümumxalq səsvermələrinin (referendumların) təcrübəsi göstərir ki, Azərbaycanda əhalinin seçki mədəniyyəti kifayət qədər yüksəlmiş, effektiv ictimai nəzarəti təşkil etməyi bacaran, məsuliyyətli və tələbkar seçici nəsli yetişmişdir. Seçkilərdə məhz belə şəraitdə keçirilmiş, xalqın iradəsini dolğunluqla əks etdirmişdir. Seçki prosesində bilavasitə iştirak etmiş maraqlı tərəflər, seçkilərin bütün mərhələlərini diqqətlə izləmiş yerli və xarici müşahidəçilər bu faktı təsdiq etmişlər.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik seçki mühitinin formalaşdırılması ölkədə hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən birinə çevrilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Prezident seçilməsi ölkəmizdə xalqın öz liderinə sonsuz məhəbbətinin ifadəsi olmaqla bərabər, demokratiyanın inkişaf etdirilməsinin, vətəndaş cəmiyyətinin quruculuğunun, o cümlədən seçki sisteminin ildən-ilə təkmilləşdirilməsinin əsasını qoymuşdur.

Demokratik ölkələrin seçki təcrübəsi göstərir ki, hər bir seçkinin uğurunu təmin edən şərtlər sırasında siyasi iradə və ictimai-siyasi sabitlik amilləri ilə yanaşı, təkmil seçki qanunvericiliyinin də olması vacibdir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirmişdir.

Bütövlükdə, respublikamızda demokratik institutlar inkişaf etdikcə seçki sistemi təkmilləşdirilmiş, keçirilmiş hər bir seçki əvvəlkinə nisbətən beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Təbii ki, bütün bunlar Ulu Öndər Heydər Əliyevin gərgin əməyi sayəsində mümkün olmuşdur. Onun seçki sistemində düşünülmüş mühüm addımları sayəsində beynəlxalq təşkilatlar Azərbaycanda keçirilən seçkilərə dair müsbət rəylər vermişlər ki, bu da Azərbaycanda qurulan seçki sisteminin mükəmməlliyini təsdiqləməkdədir.

Azərbaycanda geniş vüsət alan quruculuq və abadlıq işləri seçki komissiyalarının da rahat fəaliyyəti üçün daha müasir iş şəraitinin yaradılmasına mühüm təsir göstərmişdir. Azərbaycanda mövcud olan əksər dairə və məntəqə seçki komissiyaları ən müasir tələblər səviyyəsində inzibati binalarla təmin olunmuş, bir qismi isə əsaslı təmir edilmişdir. Azərbaycanın inkişaf edən seçki sistemində demokratik abhavanın, şəffaflığın təmin edilməsi üçün müasir informasiya texnologiyalarının tətbiqi hər zaman diqqət mərkəzində olmuşdur. Bununla əlaqədar olaraq son prezident seçkilərində ölkəmizin seçki praktikasına daha bir yenilik əlavə edilmişdir. Regionda ilk dəfə məhz Azərbaycanda seçkinin gedişatının internet vasitəsilə birbaşa izlənilməsi sistemi yaradılmışdır. Azərbaycan hakimiyyətinin aşkarlığın daha çox təmin edilməsi üçün bütün təşəbbüslərə, yeniliklərə yüksək həssaslıq nümayiş etdirməsi dünyada təqdir olunmaqdadır. Bütün bunlar Heydər Əliyev siyasi kursuna sədaqətin təntənəsi kimi qiymətləndirilməlidir.

Son 20 ildə beynəlxalq tələblər səviyyəsində həyata keçirilən hüquq islahatları deməyə əsas verir ki, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində hər bir vətəndaşın layiqli prezidenti olacağını bəyan etmiş cənab İlham Əliyev bu vədini əməli işi ilə doğrultmuş, hüquq sisteminin daha da təkmilləşməsini uğurla təmin etmişdir.

Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində perspektiv baxımından əhəmiyyətli nəticələr əldə edilib. Ən əsası isə 30 il həsrətində olduğumuz Qarabağ azadlığına qovuşub. Ali Baş Komandanın rəhbərliyi altında, müzəffər Azərbaycan Ordusu cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kapitulyasiyasına nail olduq! Ölkə Prezidenti cənab İlham Əliyev başəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin – Azərbaycanın var olduğunu sübut etdi, ***"Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur"***, – deyən Ulu Öndərin arzusunu reallaşdırdı. Bütün dünya Azərbaycanın nə qədər güclü və qüdrətli dövlət olduğunu bir daha gördü. Qürurverici haldır ki, növbəti seçkilərdə artıq tarixi Azərbaycan torpaqlarına – doğma Qarabağımıza yenidən qayıdıb orada məskunlaşan əhali öz siyasi rəyini məhz həmin torpaqlarımızda təşkil olunan seçki prosesində fəal iştirak etməklə bildirəcək.

Əminliklə deyə bilərik ki, bundan sonra da Azərbaycanda keçirilən seçkilər demokratik inkişafın göstəricisi kimi tarixə həkk ediləcək, seçki təcrübəsi baxımından yaxşı bir nümunə olacaq.

**Toğrul CƏFƏRLİ**
***Naxçıvan Dövlət Universitetinin müəllimi***

## Naxçıvanda bir ilk: *"Onlayn həkim qeydiyyatı"* xidməti tətbiq olunacaq



*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində muxtar respublikada ilk dəfə olaraq "Onlayn həkim qeydiyyatı" xidmətinin təqdimat tədbiri keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov muxtar respublika səhiyyəsində aparılan əsaslı islahatlardan və səhiyyənin inkişafına göstərilən dövlət qayğısından danışaraq bildirib ki, bu gün Naxçıvan səhiyyə sistemində həyata keçirilən tədbirlər əhalinin sağlamlığının təmin olunmasına verilən dəyərin və göstərilən qayğının bariz nümunəsidir.

Diqqətə çatdırılıb ki, müasir dövrdə telekommunikasiya və informasiya texnologiyalarının inkişafı bütün sahələrdə xidmətlərin hamı üçün əlçatan və daha rahat əldə edilməsi, vaxta qənaət, operativlik və digər üstünlükləri ilə əhalinin rifahının yüksəlməsinə səbəb olur. Bu gün muxtar respublika səhiyyəsində də elektronlaşmanın tətbiqi, elektron səhiyyə proqramlarının işlənib reallaşdırılması kimi mühüm bir layihənin həyata keçirilməsi pasiyentlərin məmnunluğu ilə nəticələnən səhiyyə sisteminin formalaşması üçün bir addımdır. Layihə çərçivəsində həyata keçirilən tədbirlər vətəndaşları yormadan, həmçinin bu günə kimi ixtisaslı həkimlərin qəbuluna yazılmaq üçün itirdikləri vaxta qənaət edərək həkimin qəbulunda lazımi tibbi xidmətdən istifadə etmək fürsətini yaradacaq.

Vurğulanıb ki, yaxın gələcəkdə tibbi xidmətlər sırasına daxil olacaq SMS xidmət sistemi vətəndaşların gözləntilərinə və tələblərinə uyğun şəkildə müayinələrlə bağlı məlumatları mobil tətbiqlər vasitəsilə əldə etməyə imkan verəcək. Hazırda bu sistemin tətbiqi üçün əhalini məlumatlarla təmin edən yeniliklər üzərində işlənilir. Əsas məqsədlərdən biri həkimlərin pasiyentlərlə canlı təmaslarının minimuma endirilməsi, hər bir pasiyentin əziyyət çəkib xəstəxanalara üz tutmadan da lazımi məlumatları əldə etməsinə nail olmaqdır.

Sonra onlayn qeydiyyatın aparılması ilə bağlı slayd təqdim edilib. Məlumat verilib ki, artıq Naxçıvan Muxtar Respublika Xəstəxanası publik hüquqi şəxsin həkim qeydiyyatı bundan sonra onlayn şəkildə həyata keçiriləcək və əhaliyə tibbi müayinə raporları elektron şəkildə təqdim ediləcək. Belə ki, vətəndaşlar müvafiq tibbi xidmətdən istifadə etmək üçün telefon vasitəsilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin internet saytında yaradılmış "Həkim qeydiyyatı" bölməsinə daxil olaraq kimlik nömrəsi və doğum tarixini qeyd edərək istədiyi ixtisas həkiminin qeydiyyatına yazıla biləcək. Qeydiyyata yazılmaq üçün hər bir həkimin qəbul saatları sistemdə qeyd edildiyindən, vətəndaş uyğun tarixi və saatı seçməlidir. Bu zaman SMS bildiriş vasitəsilə məlumat daxil olacaq ki, həkimlə görüş təyin ediləcək. Təyin edilən vaxtdan 15 dəqiqə öncə vətəndaş Naxçıvan Muxtar Respublika Xəstəxanasının Qeydiyyat şöbəsinə yaxınlaşaraq özünü təqdim etməklə həkim qəbulu üçün nömrə əldə edəcək. Həkim müayinəsi bitdikdən sonra vətəndaş müalicə və müayinələrin, eləcə də analizlərin nəticələrini onlayn əldə edə biləcək.

Qeyd edək ki, "Onlayn həkim qeydiyyatı" xidməti gələcəkdə muxtar respublikanın digər tibb müəssisələrində də tətbiq ediləcəkdir. Yeni xidmətin tətbiqi həkimlərin işinin asanlaşmasının təmin olunması ilə yanaşı, saatlarla növbə gözləyən vətəndaşların vaxt itirmədən rahat şəkildə həkim qəbulunda iştirakına xidmət edir. Bu isə həkimlə vətəndaşlar arasında qarşılıqlı etimadı artırmaq, vətəndaş məmnunluğunu yüksəltmək, bütün tərəflər üçün sağlamlığın yüksək səviyyədə təmin olunması məqsədi daşıyır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Təsərrüfat sahibləri ilə görüş keçirilib



*Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifələrini müvəqqəti icra edən, nazir müavini Xəyalə Dadaşova və nazirliyin digər məsul şəxsləri Şahbuz rayonunda təsərrüfat sahibləri ilə görüşüblər.*

Öncə Xəyalə Dadaşova muxtar respublika ərazisində aparılan payızlıq əkinlərdən, əkinlərə göstərilən aqrotexniki qulluq qaydalarından danışıb. O qeyd edib ki, əkinlərə gübrələrin verilməsi, subsidiyaya əsaslanan nağd ödənişlərin fermer kartlarına köçürülməsi təmin olunub. Şahbuz və Şərur rayonları üzrə təqdim edilən sənədlərdə uyğunsuzluq aşkar olunduğu üçün nağd ödənişlərin fermer kartlarına köçürülməsi yubansa da, artıq bu məsələ də həllini tapıb.

O, yazlıq əkinlərin diqqətdə saxlanılmasının, subsidiya üçün tələb olunan sənədlərin vaxtında təqdim edilməsinin zəruriliyini bildirib. Daha sonra heyvandarlıq təsərrüfatlarında mövcud vəziyyətdən danışıb. Bu sahədə də Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti tərəfindən təqdim olunan sənədlərdə çatışmazlıqların olması səbəbindən doğulmuş buzovlara görə subsidiyaların verilməsinin gecikdiyini və bu istiqamətdə aidiyyəti üzrə müraciət edildiyini vurğulayıb. O həmçinin 2018-ci ildə subsidiya almayan arıçılıq təsərrüfatlarına gələcəkdə subsidiyaların ödəniləcəyini deyib.

## "Araz" Elm-İstehsalat Birliyinin təcrübə sahələrinə baxış olub

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifələrini müvəqqəti icra edən, nazir müavini Xəyalə Dadaşova və nazirliyin digər məsul şəxsləri "Araz" Elm-İstehsalat Birliyinin Şərur dayaq məntəqəsində olublar. Dayaq məntəqəsində Rusiya Federasiyasından gətirilərək təcrübə üçün əkilmiş 2,8 hektar taxıl sahəsinə ("Qomer" buğda sortu), ərik, alma, şaftalı və sair meyvə ağaclarından ibarət 2,8 hektar kolleksiya bağına və dekorativ ağaclara, o cümlədən 1 hektar qarğıdalı sahəsinə və 0,1 hektar qızılgül bağına baxış keçirilib.

Xəyalə Dadaşova məntəqədə mövcud vəziyyətlə tanış olub, aborigen sortların əldə olunması istiqamətində işlərin davam etdirilməsi və muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğunlaşan məhsuldar yeni sortların da sınaq əkinlərinin keçirilməsi istiqamətində tapşırıqlar verib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

# Yeni Dövlət Proqramı Naxçıvan Muxtar Respublikasının dayanıqlı inkişafının təmin edilməsi istiqamətində dövlətin iqtisadi siyasətinin prioritet hədəflərini müəyyənləşdirir



Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi islahatları bütün sahələrdə inamla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayaraq 2004-cü ildən Azərbaycanın yeni iqtisadi siyasət strategiyası həyata keçirilməyə başlanılıb. Dövlət başçısının prezidentlik fəaliyyətində verdiyi ilk fərmanlar da məhz ölkənin və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri olmuşdur. Bu istiqamətdə kompleks tədbirlər həyata keçirən ölkə Prezidenti demişdir: ***“Bizim iş üslubumuz belədir: bölgələrdə problemi müəyyən etmək, onun həlli üçün lazım olan yolları müəyyən etmək, axtarmaq və tədbirlər planı hazırlamaq. Bunu etmək üçün artıq bizim maliyyə imkanlarımız da var”.***

Dövlətin regional sosial-iqtisadi siyasəti Naxçıvan Muxtar Respublikasını da əhatə edərək böyük uğurlar qazanılmasına imkan vermişdir. Muxtar respublikanın yerləşdiyi coğrafi ərazi onun iqtisadiyyatının xarici mühitdən təsirlənə bilməsi üçün geniş zəmin yaradır. Bu səbəbdən uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi və şaxələndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Dövlət başçısı tərəfindən iyunun 5-də imzalanan Sərəncamla təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” yaxın beş il ərzində bütün sahələrdə inkişafın perspektiv əsaslarını formalaşdırmaqla muxtar respublikanın yeni inkişaf mərhələsinin əsasını qoyur. Yeni Dövlət Proqramının qəbulu ilə bağlı suallarımızı Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru, iqtisad üzrə fəlsəfə doktoru, dosent ***Mehriban İmanova*** cavablandırır.

***– Mehriban xanım, ilk olaraq bir mütəxəssis kimi Dövlət Proqramının qəbulunun hansı məqsədlərə söykəndiyi barədə fikirlərinizi bilmək istərdik...***

– Yeni proqramın hazırlanmasını şərtləndirən əsas məqsəd muxtar respublikada iqtisadiyyatın diversifikasiyasına və onun dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılmasına, əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsinə nail olmaq, yeni müəssisələrin və iş yerlərinin yaradılması, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması ilə bağlı əhəmiyyətli 11 prioritet istiqaməti əhatə edir. Proqramın əsas xüsusiyyəti qarşıda duran məqsədlərin daha yüksək səviyyəli, geniş istiqamətli və zamanın tələblərinə uyğun olması ilə bağlıdır. Növbəti Dövlət Proqramında da aparılan siyasətin sosialyönümlü olması artıq bir ənənə halına çevrilmişdir. Yəni nəzərdə tutulan tədbirlərin həyata keçirilməsində xərclərin daha çox investisiya və sosial istiqamətdə yönəldiləcəyi diqqəti cəlb edir. Dövlət Proqramı muxtar respublikamızın sıçrayışlı inkişafını təmin etməklə yanaşı, insanların sosial həyatının yaxşılaşması və dünyaya inteqrasiya olunmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərərək yeni proqressiv çalarlar almasında mühüm rol oynayacaq ki, bu da bütövlükdə: respublikanın ümuminkişaf göstəricilərinə təsir edəcək. Daha dəqiq desək, istehsal müəssisələrinin fəaliyyətinin bərpası və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, regionun inkişafı üçün zəruri infrastrukturun yaradılması, aqrar sektorda intensiv metodlardan istifadə, fermerlərə və digər kənd təsərrüfatı işçilərinə dəstək məqsədilə müxtəlif servis xidmətlərinin, investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması və digər kompleks tədbirlərin görülməsi nəticəsində muxtar respublikanın sosial-iqtisadi inkişafında əsaslı dönüş yaranacaq.

***– Dərin elmi-nəzəri əsaslara, praktiki reallığa əsaslanan bu dövlət sənədində muxtar respublikanın mövcud sosial-iqtisadi vəziyyəti hərtərəfli təhlil olunub, zəif tərəflər, problemlərin həll edilməsi yolları aşkar edilərək konkret hədəflər müəyyənləşdirilib.***

– Muxtar müəllim, sizin də haqlı olaraq vurğuladığınız məsələ ilə bağlı deyə bilərəm ki, hər hansı bir regionun inkişaf prosesində iqtisadi amillərin mövcudluğu ilə mühüm irəliləyişlər əldə edilir və ümumilikdə, digər amillər də iqtisadi amillərdən asılı olaraq inkişaf edə bilir. Dövlət Proqramında təbii ehtiyatlar, investisiya və kapital yığılması, xarici ticarət, birbaşa xarici investisiyalar, texnologiya, infrastruktur, maliyyə inkişafı, iqtisadi artım, vergi kimi bütün iqtisadi faktorlar qiymətləndirilib, 2023-2027-ci illər ərzində muxtar respublikada kənd təsərrüfatının inkişafı, emal müəssisələrinin yaradılması, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını və bütün bunların fonunda çoxlu yeni iş yerinin açılması xüsusi diqqətdə saxlanılıb. Eyni zamanda yerlərdə enerji infrastrukturunun, nəqliyyat-kommunikasiya sisteminin bərpası, habelə elmi-texniki tərəqqi, mədəni yüksəliş, müasir informasiya texnologiyalarının tətbiqi məsələlərini özündə ehtiva edib. Yeni dövlət sənədində biznes infrastrukturunun müasir tələblər səviyyəsində formalaşdırılması, bazarda azad rəqabət prinsiplərinin qorunub saxlanılması, sahibkarlıq fəaliyyətinin informasiya təminatı sisteminin müasir tələblər səviyyəsində qurulması, ixracyönümlü məhsulların xarici bazarlarda mövqeyinin gücləndirilməsi, istehsal olunan məhsulların ixrac coğrafiyasının şaxələndirilməsi üçün hədəf bazarlar üzrə çatışmazlıqların müəyyənləşdirilməsi və aradan qaldırılması, məhsulun rəqabətqabiliyyətli olmasının təmin edilməsi, sahibkarlıq subyektlərinin iqtisadi və maliyyə göstəricilərinin yaxşılaşması, gömrük rejiminin sadələşdirilməsi, ixracyönlü sənaye sahələri üzrə layihələrin hazırlanması və layihələrə investisiyaların cəlb edilməsi istiqamətində iş aparılması kimi tədbirlərin icra olunması proqramda öz əksini tapmışdır.

***– Mehriban xanım, məlumdur ki, ümumi daxili məhsul insanların yaxşı yaşaması üçün lazım olan əsas şərtlərdən biri kimi iqtisadi fəaliyyətin təkmilləşdirilmiş ölçüsüdür. Hazırda muxtar respublikada ümumi daxili məhsulun tərkibində əsas yeri özəl sektor tutur. Bəs Dövlət Proqramında bununla bağlı hansı tədbirlərin görüləcəyi nəzərdə tutulub?***

– Zəruri məsələyə toxundunuz. Bildirmək istərdim ki, sahibkarlıq fəaliyyəti üçün əlverişli biznes mühitinin yaradılması və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması ilə istehsal və xidmət sahələrinin əhatə dairəsinin daha da genişləndirilməsi qarşıda duran vəzifələrdəndir. Dövlət Proqramının ən uğurlu istiqamətlərindən biri daha əlverişli biznes və investisiya mühitinin formalaşması, iş adamlarının fəaliyyət imkanlarının genişlənməsi, bölgələrin istehsal potensialının səmərəli realizə edilməsidir. Cəmiyyətin müxtəlif tələbatlarının ödənilməsi, məhsuldarlığın əldə olunması və mənfəətin qazanılması üçün bütün istehsal amillərini sahibkarlıq fəaliyyəti birləşdirir və əlaqələndirir. Ümummilli Lider Heydər Əliyev də sahibkarlığın inkişafına böyük önəm verirdi: ***“Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur”.*** Hər bir regionda uzunmüddətli və dayanıqlı iqtisadi yüksəlişin əsasını müəyyənləşdirən faktor kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və sivilizasiyalı bazar iqtisadiyyatının formalaşmasının ən başlıca meyarlarından biri elə sahibkarlıq fəaliyyətidir. Muxtar respublikanın inkişafı, ilk növbədə, sahibkarlığın inkişafından asılı olduğu üçün qarşıdakı beşillikdə də bu fəaliyyətin dəstəklənməsi zəminində onların maliyyə təminatının artırılması və güzəştli kreditlərin verilməsinin davam etdirilməsi diqqət mərkəzində saxlanılacaq. ÜDM-in strukturunda ilk yerə sənaye sahəsinin sahib olması sənayeləşmə prosesinin davam etdirilməsi üçün geniş imkanlar yaradır. Muxtar respublikanın malik olduğu zəngin təbii ehtiyatlar bu prosesin davamlılığına geniş baza yaratdığından yeni sənaye sahələrinin fəaliyyəti ilə keyfiyyətli məhsul istehsal etmək, müasir texnologiyalardan istifadə və məhsul çeşidlərini yeniləmək, onun nəinki daxili bazara, həm də xarici bazara inteqrasiyasını təşkil etmək dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Beşillik proqram təkcə yeni sənaye müəssisələrinin yaradılması deyil, həm də onların beynəlxalq standartlar və müasir texnologiyalar əsasında qurulmasını tələb edən sənaye parklarının yaradılması, Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin olunması kimi məsələləri zəruri edir. Eyni zamanda mövcud istehsal sahələrinin potensialının qiymətləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə istifadə olunması üçün məhsul istehsalının artırılması, infrastrukturun genişlənməsi kimi məsələlər proqramda öz əksini tapmışdır.

***– Sənayenin strukturunda ilk yeri yeyinti sənayesi tutduğundan, bu sahənin inkişafı kənd təsərrüfatının da tarazlı şəkildə inkişafını stimullaşdırır. İstənilən ölkənin iqtisadi təhlükəsizliyi birbasa kənd təsərrüfatının dayanıqlı inkişafından asılıdır. Hələ iki min ildən artıq bundan əvvəl yunan filosofu Ksenofot kənd təsərrüfatını bütün digər sahələrin anası adlandırırdı. Bu sahə insanlar üçün əsas ərzaq mənbəyi hesab edilir və əhalinin istehlak fondunun ən azı üçdə ikisi bilavasitə kənd təsərrüfatı məhsulları hesabına təmin olunur...***

– Dünya əhalisinin sürətlə artdığı, qlobal iqlim dəyişikliyinin intensivləşdiyi hazırkı dövrdə ölkələrin aqrar sektora ehtiyacı bir az da çoxalıb və ərzaq təhlükəsizliyi məsələsi qabarıq şəkildə hiss olunur. Aqrar sektor yalnız ərzaq təhlükəsizliyinin təmin olunması baxımından deyil, həm də ekoloji tarazlığın qorunması istiqamətində də mühüm əhəmiyyət kəsb edir. Bir çox ölkələrdə kənd təsərrüfatı siyasəti ekoloji siyasətlə yanaşı, qiymətləndirilərək ətraf mühitin və resursların qorunmasına imkan yaradır. Eyni zamanda kənd təsərrüfatı gəlirin, məşğulluğun və xarici ticarətin ən zəruri mənbəyi hesab edilir.

Dövlət Proqramında icra olunması yerli və xarici investisiyaların cəlb edilməsi ilə ərzaq məhsullarının istehsal həcminin artırılması, baytarlıq, texniki nəzarət, sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi, tələbatdan artıq istehsal edilən kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması, torpaqların meliorativ vəziyyətinin sağlamlaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi, suvarma-drenaj şəbəkələrinin inkişaf etdirilməsi, maliyyə dəstəyinin gücləndirilməsi, kənd təsərrüfatı malları bazarlarının qorunması, maddi-texniki bazanın möhkəmləndirilməsi və digər mühüm tədbirlərin reallaşdırılması qarşıya qoyulan məqsədə nail olunmasına əlverişli şərait yaradır. Kənd təsərrüfatında məhsul istehsalının stimullaşdırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi istiqamətində görüləcək işlər regionun iqtisadi mənzərəsinin dəyişməsində əhəmiyyətli rol oynayacaq. Dünya təcrübəsi göstərir ki, sənaye parklarının və aqroparkların yaradılması ölkə iqtisadiyyatının ixrac, rəqabət qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Aqroparkların yaradılması həm də kəndlərdə yaşayan əhalinin sosial vəziyyətinin yaxşılaşmasına xidmət edir. Sənaye məhəllələrində və aqroparklarda fəaliyyət göstərən sahibkarların fəaliyyətinin stimullaşdırılması üçün genişmiqyaslı vergi güzəştləri mövcuddur. Sahibkarlığın inkişaf etdirilməsi regionun vergi potensialının artmasına səbəb olduğu kimi, vergi güzəştləri də sahibkarlığın inkişafını stimullaşdırır və iqtisadi risklərin minimuma endirilməsini təmin edir. Muxtar respublikamızda aqroparkların yaradılması kənd təsərrüfatının sənayeləşməsini sürətləndirməklə ətraf mühitin qorunması, torpaq və su resurslarından səmərəli istifadə, bitkiçiliyi, heyvandarlığın, emal sənayesinin və digər sektorların inkişafı ilə məhsul istehsalının və məşğulluğun artmasına möhkəm zəmin yaradacaq.

***– İqtisadi inkişaf prosesinin təmin edilməsində iqtisadi, sosial və institusional strukturun əhəmiyyəti ilə yanaşı, iqtisadi inkişaf prosesində ticarətin inkişafının da böyük əhəmiyyəti vardır. Mehriban xanım, istərdim ki, bir iqtisadçı kimi Dövlət Proqramında nəzərdə tutulan bu məsələlərlə bağlı fikirlərinizi də oxucularımıza çatdırasınız.***

– Qeyd edim ki, Dövlət Proqramında Naxçıvan şəhərində rüsumsuz ticarət mağazalarına bərabər güzəştlərin tətbiq olunduğu Ticarət Mərkəzinin, yaradılması, gömrük rüsum güzəştini nəzərdə tutan xüsusi gömrük zonasının yaradılması, ölkəmizin digər bölgələrindən hava yolu ilə muxtar respublikaya səfər edən fiziki şəxslər üçün idxal gömrük ödənişləri üzrə güzəştlərin tətbiq edilməsi əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi, turistlərin cəlb edilməsi və iqtisadi aktivliyin artması ilə ticarətin inkişafına öz töhfəsini verəcək. Azad iqtisadi zonanın yaradılması istiqamətində tədbirlərin görülməsi ticarət və logistika imkanlarının genişlənməsi və əlverişli biznes mühitinin yaranması ilə muxtar respublika iqtisadiyyatının inkişafına güclü təkan verəcək.

İnvestisiya mühitinin formalaşmasında sağlam və sabit siyasi, iqtisadi və normativ-hüquqi mühit, şəffaflıq, proqnozlaşdırma, iqtisadi açıqlıq kimi amillər mühüm rol oynayır. Onu da qeyd etmək lazımdır ki, investisiyaların cəlb olunması üçün xüsusi bir plan mövcud deyil və hər bir ölkə xüsusi şəraitinə əsaslanaraq, ehtiyac və imkanlarını nəzərə alaraq öz strategiyasını işləyib hazırlayır. İnvestisiya prosesi ölkənin gələcəyini formalaşdırır, rəqabət qabiliyyətini gücləndirir. İnvestisiyaların xüsusi çəkisi ümumi daxili məhsulda nə qədər çox olarsa, bu, iqtisadiyyatda müsbət nəticə kimi qiymətləndirilə bilər. Bu baxımdan proqramda nəzərdə tutulan yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər görülməsi vacib əhəmiyyətə malikdir.

***– Davamlı inkişafın təmin edilməsi üçün təkcə iqtisadi artım deyil, eyni zamanda ətraf mühitin qorunması, əhalinin sağlamlığı, yüksək həyat şəraitinin təmin edilməsi, təbii və insan ehtiyatlarından səmərəli istifadə edilməsi, məşğulluq sisteminin inkişafı nəticəsində işsizlik və yoxsulluq səviyyəsinin aradan qaldırılması kimi sosial məsələlər vacib şərt hesab olunur.***

– Muxtar müəllim, məsələ ilə bağlı əvvəlcə onu qeyd etmək istərdim ki, istehsal və xidmət müəssisələrinin çoxalması məhsul istehsalının həcmi və məşğulluq səviyyəsinin yüksəlməsi ilə nəticələnir ki, bu da əhalinin maddi rifahını yaxşılaşdırır. Əhalinin həyat səviyyəsi istehsal edilən məhsul və xidmətin həcmi ilə ölçüldüyündən bu prosses sosial-iqtisadi inkişafla nəticələnir. Proqramda nəzərdə tutulan bütün istiqamətlərin son nəticəsi muxtar respublikada yeni iş yerlərinin yaradılması ilə əhalinin gəlirlərinin artmasına, əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə xidmət edir. Proqramın məqsədlərindən biri də əmək bazarında tələb və təklifin real vəziyyətinin qiymətləndirilməsi ilə əhalinin səmərəli məşğulluğunun inkişafına, əmək bazarının tələblərinə uyğun peşə hazırlığına, işaxtaranların, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsinə, əlillərin əmək bazarına inteqrasiyasının təmin olunmasına, onların məşğulluq səviyyəsinin artırılmasına yönəldilən tədbirlərin həyata keçirilməsindən ibarətdir. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi muxtar respublikamızda səmərəli məşğulluq siyasətinin həyata keçirilməsinə və əhalinin rifah səviyyəsinin yaxşılaşdırılmasına böyük töhfə verəcək.

Əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətindəki məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi hər zaman insan inkişafına aparan yolda daha böyük nailiyyətlər əldə olunmasına əsas yaradır. Təkrar istehsal prosesində məhsul və xidmətlərin dəyərinin yaradılmasında istehsal faktorlarından biri olan kapital təkcə texnoloji avadanlıqları deyil, həm də bu avadanlıqları hərəkətə gətirib əlavə dəyər istehsal edən, onun işçi qüvvəsinin daşıyıcısı olan insan kapitalını da əhatə edir. Dünyanın görkəmli iqtisadçıları da belə hesab edirlər ki, əgər ölkələr bu gün keyfiyyətli insan, keyfiyyətli texnologiya, keyfiyyətli istehsal formuluna düzgün riayət etsələr, o zaman əsl inkişaf zirvəsini fəth edə bilərlər. İnsanların sağlamlığına və təhsilinə qoyulmuş investisiya insan kapitalının inkişafını şərtləndirən əsas amildir ki, insanın buna malik olması üçün, ilk növbədə, infrastrukturun yaradılması vacib şərtdir. Proqramda elmin, təhsilin və istehsalın inteqrasiyasının təmin edilməsi insan amilinin yüksəlişinə, mədəni-intellektual potensialın güclənməsinə, mənəvi-əxlaqi dəyərlərin daha möhkəm əsasda intişar tapmasına zəmin yaradacaq, hazırda inkişafın keyfiyyətcə yeni mərhələsini yaşayan muxtar respublikanın sosial-iqtisadi tərəqqisini təmin edəcək.

***– Müsahibə üçün çox sağ olun.***

**Muxtar MƏMMƏDOV**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

*İkinci Qarabağ savaşının üzərindən iki ildən çox vaxt keçsə də, bu müharibə hərb tariximizin öyrənilməsi baxımından hələ uzun illər müzakirə olunacaq. Xüsusilə müasir savaşların aparılması texnologiyasını ilk dəfə dünyaya təqdim edən Azərbaycan bununla dünya hərb tarixində yeni səhifələr yazdı. Təbii ki, müharibələr təkcə texnoloji imkanlarla yox, həm də yeni nəsil müharibə fəlsəfəsini anlamaq, doktrina tətbiq etmə, müharibə şəraitində komandirlik qabiliyyəti, komanda nəzarəti çevikliyi, həm də döyüşən əsgərlərin inancı, ruh yüksəkliyi və fiziki-psixoloji hazırlıqları ilə ölçülür. Digər tərəfdən, müasir dövrdə müharibələrin gedişinə və nəticəliliyinə son dərəcə mühüm təsir göstərən qlobal baxış və təsir mexanizmləri mövcuddur. Hansı ki bütün bunların hər biri ilə Vətən müharibəsi dövründə çox rastlaşdıq. Xüsusilə ədalətin, gücün yanında yer aldığı dünyamızda bu proseslər hazırda da davam edir. Elə qardaş Türkiyə Respublikasının Baxçaşəhər Universitetinin müəllimi, terror və təhlükəsizlik üzrə ekspert* **Abdulla Ağar***la da İkinci Qarabağ müharibəsi və ondan sonrakı dövrdə regionda baş verən prosesləri bir daha müzakirə etməyə çalışdıq:*

*Jurnalist araşdırması*

# Abdulla Ağar: "II Qarabağ savaşı dünyada çox kiçik ərazidə yaşanan təhlükəli bir müharibə idi"

## *Azərbaycan bu müharibəni böyük Zəfərlə tamamlayaraq tarixə möhür vurdu*

***– Abdulla bəy, xoş gördük. İkinci Qarabağ müharibəsinin getdiyi dövrdə həm də müharibədən sonrakı dövrdə Azərbaycan və Türkiyə ictimaiyyəti sizin aktiv təhlil və analizlərinizi çox yaxından izləyirdi. Baş verən proseslərin ictimaiyyətə aydın şəkildə çatdırılmasında sizin rolunuz danılmazdır və bir azərbaycanlı jurnalist olaraq bu əməyinizə görə sizə təşəkkürlərimi bildirirəm. Təbii ki, bu təhlillər, adətən, konkret bir hadisə və ya prosesə görə verilirdi. Bu dəfə isə mən sizdən II Qarabağ müharibəsi və sonrakı dövrə ümumi baxışınızla bağlı fikirlərinizi öyrənmək istərdim.***






– Çox sağ olun. Sizi də xoş gördük. Əvvəlcə qeyd etmək istərdim ki, İkinci Qarabağ savaşı illərdir, həllini gözləyən, amma həll oluna bilməyən bir savaş idi. Buna görə də bu müharibə qaçılmaz idi. Müharibələr nə zaman baş verir? O zaman ki hər iki tərəf üçün danışıqlar artıq heç bir nəticə vermir və son çıxış yolu kimi qarşı-qarşıya gəlmək zərurəti yaranır. Azərbaycan bu savaşda, təbii ki, dünya birliyinin də qəbul etdiyi kimi haqlı tərəfdir və illərdir, öz torpaqlarını işğaldan azad etmək üçün bütün siyasi, diplomatik yollara baş vurmuşdu. Artıq qarşı tərəf, yəni Ermənistan problemin sülh yolu ilə həll olunması üçün heç bir yer qoymamışdı. Amma bir də bu müharibəni tezləşdirən səbəblər oldu. Xüsusilə 2020-ci ilin iyulunda Tovuz döyüşləri zamanı əfsanəvi general Polad Həşimovun digər zabit heyəti və əsgərlərimizlə birgə şəhid olması Azərbaycanın səbrini daşırdı. Erməni tərəfinin bu istiqamətdə aqressiv hücumlarının əsl səbəbi Azərbaycanın bu hissədən keçən təbii qaz, neft və beynəlxalq nəqliyyat marşrutlarını nəzarət altına almaq istəyi idi. Müharibə dövründə erməni qərargahlarında ələ keçirilən strateji sənədlər də bunu təsdiq edirdi. Beləliklə, müharibədən əvvəlki bu hücumlar yaxınlaşan savaşın ayaq səsləri idi və Azərbaycan böyük bir risklə üz-üzə qalmışdı və bunu əvvəlcədən hiss etmişdi.

***– Hansı risklər idi bunlar?***

– Yəni Azərbaycanı üç yerə böləcəkdilər. Araz çayının sahili boyunca strateji bir hücuma başlayaraq Xəzərin neft-qaz yataqlarına qədər irəliləyəcəkdilər. Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında, eynilə Zəngəzur dəhlizində olduğu kimi, bu istiqamətdə də bir torpaq sahəsini ələ keçirməyə çalışacaqdılar. Digər tərəfdən, Azərbaycanın şərqi ilə qərbini birbirindən gələcəyi dizayn edəcək şəkildə tamamilə ayıracaqdılar. Beləliklə, əgər müharibə Ermənistanın və onun arxasında dayananların istədiyi kimi olsaydı, ölkəni üç yerə böləcəkdilər. Belə bir risk var idi Azərbaycanın qarşısında.

***– Və Azərbaycan belə bir planı müharibənin əvvəlində hiss edərək strategiyasını buna görə hesabladı.***

– Tamamilə doğrudur. Buna görə də müharibənin ilk günlərində güvəndiyi dost və qardaş Türkiyə ilə çox sıx siyasi və diplomatik bir əlaqə qurmağa başladı. Belə ki, Türkiyə hörmətli Prezidentimiz cənab Rəcəb Tayyib Ərdoğanın güclü iradəsi ilə çox açıq şəkildə siyasi və mənəvi olaraq Azərbaycanın yanında yer aldı. Onsuz da Tovuz hadisələrindən sonra Türkiyə hərbi-siyasi düşüncələri ilə bu savaşın yanında idi. Müharibənin başlanğıcında erməni hərbi birliklərinin Azərbaycanın mülki və hərbi obyektlərinə artilleriya hücumlarını təşkil etməsilə artıq bu müharibə başlamış oldu. Mənə görə, İkinci Qarabağ savaşı dünyada çox kiçik bir ərazidə yaşanan çox təhlükəli və yeni nəsil hərbi əməliyyatların tətbiq olunduğu bir müharibə idi və Azərbaycan çox böyük bir fədakarlıqla, qəhrəmanlıqla bu mübarizəsini başa çatdıraraq möhtəşəm bir Zəfərə imza qoydu.

***– Təhlükəli dedikdə əsas nəyi nəzərdə tutursunuz?***

– Bilirsiniz, cəbhədəki Ohanyan səddi bizim indiyədək digər müharibələrdə rastlaşdığımız sadə bir sədd deyildi. Normal qaydalara görə I, II, III müdafiə istehkamları haqqında hər birimiz məlumatlıyıq. Mən müharibədən sonra o cəbhə xəttini gəzərkən ermənilərlə bütün təmas xətləri boyunca o cür istehkamların qurulduğunun şahidi oldum: ard-arda qalın beton divarlar, tank əleyhinə keçilməz səddlər, əlavə xəndəklər, mina sahələri və sair. Azərbaycan Ordusu bu sədləri keçərkən, təbii ki, itkilər verdi. Nəzərə alın ki, ümumi şəhid sayımız 2914-ə çatmışdı və bunun üçdə biri ilk iki-üç gündə verilmişdi! Deməliyəm ki, rusların ermənilərə verdikləri müasir tank əleyhinə idarəetmə sistemləri baxmayaraq ki, biz döyüş zamanı onları məhv etdik, ordumuzun irəliləməsinə ilk günlərdə böyük çətinliklər yaradırdı. Amma Azərbaycanın xüsusi təyinatlı qüvvələri Naxçıvandan gələn xüsusi təyinatlılarla birgə cəbhənin bir çox istiqamətlərində son dərəcə böyük uğurlar əldə etdilər.

***– Şuşanın alınmasında xüsusilə fərqləndilər...***

– Təkcə Şuşanın alınmasında deyil. Xüsusi təyinatlılar "N" korpuslarla birlikdə müxtəlif istiqamətlərdən hücumlarda iştirak edirdilər. Bildiyiniz kimi, hələ Füzuli rayonu azad edilməmişdən əvvəl Azərbaycan İranla cənub sərhədləri boyunca ərazilərinin işğalçılardan təmizlənməsi üçün strateji bir qərar qəbul etdi və o zaman cəbhənin ön bölgələrində yerləşən xüsusi təyinatlıların da bir qismi oradan çıxarılaraq sızma hərəkatı ilə Cəbrayıla qədər keçilməsi son dərəcə çətin olan bir ərazini, Cəbrayılla və sərhəd xətti ilə birlikdə çox qısa zaman ərzində nəzarətə götürdü. Xüsusilə Cəbrayıl ərazisində həm Ermənistan, həm də Azərbaycan xüsusi təyinatlıları qarşı-qarşıya gələrkən Azərbaycan xüsusi təyinatlıları böyük bir əzm, qəhrəmanlıq göstərərək düşməni darmadağın etdi və Cəbrayıl işğaldan azad olundu. Bunun ardınca Hadrut azad edildi. Onu da deyim ki, Hadrutun ələ keçirilməsi çox möhtəşəm bir əməliyyatın nəticəsi idi. Bundan sonra da Füzuli işğalçılardan təmizləndi. Bu əməliyyatlardan sonra erməni tərəfində böyük bir ruh düşkünlüyü yarandı. Təbii ki, bütün bunlar xüsusi təyinatlılarımızın digər bölmələrimizlə birgə böyük uğuru idi. Bundan sonra qarşıya qoyulan əsas vəzifə Şuşanın alınması idi. Şuşa əməliyyatı haqqında da bilirsiniz ki, xüsusi təyinatlılar burada çox böyük vəzifənin öhdəsindən gəldilər. Xüsusilə indiki Zəfər yolunun salınması Şuşaya girəcək birliklərin arxa təminatı üçün mühüm rol oynadı. Qeyd etməliyəm ki, Şuşa əməliyyatı çox möhtəşəm bir əməliyyat oldu. Ən əsası xüsusi təyinatlılarımız ermənilərin gözlədikləri yerdən deyil, tam əks tərəfdən – şimal-qərb tərəfdən Şuşaya girdilər və Şuşa ilə ətrafındakı ərazilərdə iki-üç gün çox güclü döyüşlər getdi, çünki ermənilərə Xankəndi istiqamətindən davamlı təminat gəlirdi. Sonda bu yolun da qarşısı kəsildi və Şuşa Azərbaycan əsgərinin tam nəzarəti altına keçdi.

***– Abdulla bəy, bildiyiniz kimi, müharibə dövründə Ermənistandan Qarabağ istiqamətinə istənilən hərəkətlilik Naxçıvandakı ordu birləşmələri tərəfindən ciddi nəzarətdə saxlanılırdı. Hətta Ali Baş Komandan cənab İlham Əliyev də müharibədən sonrakı açıqlamalarında bu haqda öz fikirlərini bildirmişdi. Ümumiyyətlə, II Qarabağ müharibəsi dövründə, eyni zamanda bu qələbənin qazanılmasında Naxçıvanın rolunu necə ifadə edərdiniz?***

– Əvvəlcə onu deyim ki, Naxçıvan xüsusi təyinatlılarının müharibədəki rolunu çox yaxşı bilirəm. Həmin xüsusi təyinatlıların komandanlığında olan şəxslərlə də bir-bir görüşüb söhbət etmişəm. Onların necə mübarizə apardıqlarını, hansı qəhrəmanlıqları ilə fərqləndiklərini mən də qələmə almışam. Naxçıvandakı xüsusi təyinatlıların Azərbaycanın digər xüsusi təyinatlıları ilə birgə hərəkət etməsi çox möhtəşəm idi və bu da qələbənin qazanılmasında özünü göstərdi. Digər tərəfdən, bildiyimiz kimi, müharibə dövründə ordumuz Naxçıvan istiqamətindən bu savaşa girməsə də, amma Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun hər an savaşa hazır vəziyyətdə gözləməsi, buradakı təmas xətti boyunca silah və texnikaların döyüş hazırlığı vəziyyətində saxlanılması erməni tərəfini ehtiyat tədbirləri görməkdən, güc tətbiq etməkdən çəkindirir və psixoloji olaraq təsir edirdi. Həmçinin Qarabağ istiqamətində gedən yola Naxçıvandan ciddi nəzarət edilməsi oradakı birliklərimizin daha maneəsiz və sürətli irəliləməsi baxımından çox böyük əhəmiyyət daşıyırdı.

***– Yeri gəlmişkən, bir məsələyə də münasibətinizi bilmək istərdim. Aydın məsələdir ki, bu gün dünyada mühüm ticarət yollarının keçdiyi bölgələr həm də həmin bölgələrin təhlükəsizliyi baxımından böyük əhəmiyyət daşıyır. Yəni ticarət yollarına marağı olan ölkələr bu yolların təhlükəsizliyinə də maraq göstərirlər. Bu baxımdan Zəngəzur dəhlizi Naxçıvanın təhlükəsizliyində hansı rola malik ola bilər?***

– Bildiyiniz kimi, Zəngəzur dəhlizinin açılması Rusiya, Azərbaycan və Ermənistan liderlərinin birgə imzaladıqları bəyanatda öz əksini tapıb. Amma müharibənin qurtarmasından iki il yarım keçsə də, Azərbaycan bu sahədə üzərinə düşən öhdəlikləri yerinə yetirib, görülən tikinti işlərini, demək olar ki, yekunlaşdırsa da, qarşı tərəf bu sahədə heç bir addım atmayıb. Səbəb isə çox sadədir: bu dəhliz artıq bir çox güclərin maraqlarının toqquşduğu bir əraziyə çevrilib. Halbuki dəhlizin açılması burada iştirak edən Rusiyanın da, Azərbaycanın da, Ermənistanın da, hətta İranın da xeyrinədir. Amma ortada nəyi görürük? Məsələn, İran bunu özünün qırmızı xətti kimi görür, Ermənistan hərdən bir söz deyir. Halbuki, dediyimiz kimi, buradakı ölkələrin hər biri bundan faydalana bilər. Eyni zamanda bu layihə Çinin və digər Avropa ölkələrinin də marağındadır və hər biri də bundan yararlanmaq istəyir. Bir şeyi unutmayaq ki, Zəngəzur dəhlizi bizim haqqımızdır. Biz bu haqqımızdan istifadə edəcəyik, istər sülh yolu ilə, istərsə də güc vasitəsilə. Bu dəhlizin açılması ilə Naxçıvanın təhlükəsizliyi də diqqət mərkəzində olacaq. Yəni bu artıq iqtisadi maraqlar üzərində formalaşan zərurətə çevriləcək.

***– Abdulla bəy, xüsusi təyinatlılarla söhbətlərinizi qələmə aldığınızı söylədiniz. Yəqin, yeni layihəniz olacaq bununla bağlı, yoxsa necə?***

– Bəli, mən artıq II Qarabağ müharibəsindən bəhs edən kitabımın üzərində işləyirəm. Buna düz on yeddi ayımı sərf etmişəm. Bunun doqquz ayını Azərbaycanda, səkkiz ayını isə Türkiyədə olmaqla. Bu kitabı yazmaq üçün birbaşa döyüşdə iştirak edən 400-ə yaxın insanla görüşüb söhbət etmişəm. Bu söhbətlərdə başda Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Kərim Vəliyev, Hərbi Hava Qüvvələrinin komandanı Ramiz Tahirov, xüsusi təyinatlıların komandanı Hikmət Mirzəyev, eləcə də bütün korpus komandirləri və baş qərargah rəisləri, ayrı-ayrı hərbi birləşmələrin komandirləri olmaqla çox sayda zabit və əsgərlər iştirak edib. Hazırda yazdığım material 1500 səhifədir, bəlkə də, yekunlaşınca 2000 səhifəyə qədər də gedib çıxa bilər. Və bir şeyi də deyim ki, dünyada heç bir müharibə ilə bağlı bu həcmdə və səviyyədə kitab yazılmayıb və bu kitabın Azərbaycana həsr olunmasının mənim üçün başqa bir dəyəri vardır. Şükürlər olsun ki, Allah mənə belə bir iş görməyi nəsib etdi.

***– Kitabın adı necə olacaq? Çox maraqlı gəldi mənim üçün...***

– Kitabın adını "Qarabağ dastanı" qoymuşam, "Qarabağ savaşı" da ola bilər. İşlər yekunlaşandan sonra adını da tam dəqiqləşdirəcəyik.

***– Abdulla bəy, bu gözəl işləriniz üçün sizə uğurlar arzulayırıq, bunu da əlavə edim ki, sizinlə söhbət çox xoş idi. Kitabınızın da tezliklə işıq üzü görməsini arzu edir, nəşrini biz də böyük intizarla gözləyirik. Eyni zamanda bizim üçün vaxt ayırıb suallarımıza cavab verdiyinizə görə sizə bir daha təşəkkürlərimi bildirirəm.***

– Çox sağ olun, mənim üçün də çox xoş oldu. Sizə də uğurlar arzulayıram.

**✍ Səbuhi HƏSƏNOV**
*Naxçıvan Muxtar Respublikasının*
*Əməkdar jurnalisti*
*Naxçıvan-Ankara-Naxçıvan*

# Aqrar Subsidiya Şurasının növbəti iclası olub

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində Aqrar Subsidiya Şurasının növbəti iclası keçirilib. İclasda 2022-ci ildə payızlıq taxıl əkinləri həyata keçirən Şərur və Şahbuz rayonları üzrə 2397 sayda istehsalçıya 2023-cü ildə yeni doğulmuş buzovlara, o cümlədən 2022-ci ildə muxtar respublika ərazisində tütün əkini həyata keçirmiş, nəticədə, quru tütünü təhvil vermiş, lakin subsidiya ala bilməyən istehsalçılara subsidiyaların verilməsi məsələləri müzakirə olunub.

Nəticə etibarilə, Şərur və Şahbuz rayonlarında payızlıq taxıl əkinlərinə görə subsidiyaların verilməsi haqqında qərar qəbul olunub. Digər məsələlər isə araşdırılması zəruriliyi səbəbindən növbəti iclasa saxlanılıb.

Qeyd edək ki, şuranın əvvəlki iclasının qərarına əsasən Ordubad, Culfa, Babək, Kəngərli, Sədərək rayonlarında və Naxçıvan şəhərində payızlıq taxıl əkini həyata keçirən istehsalçılara subsidiyaların verilməsi təmin olunub.

*Naxçıvan Muxtar Respublikası*
*Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti*

# *"Heydər Əliyev və Azərbaycan elmi"*
## mövzusunda elmi konfrans keçirilib



Naxçıvan Dövlət Universitetində "Heydər Əliyev və Azərbaycan elmi" mövzusunda keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev xalqımızın Ümummilli Liderinin milli elmin inkişafındakı misilsiz xidmətlərindən danışıb. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin elm siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü Muxtar İmanov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanov Azərbaycanın elmi potensialının formalaşması və gücləndirilməsində, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiq imkanlarının genişləndirilməsində, Azərbaycançılıq məfkurəsinin möhkəmlənməsində Ulu Öndər Heydər Əliyevin müstəsna və misilsiz xidmətlərindən danışıblar. Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyev respublikamızda elmin və texnikanın inkişafına hər zaman hərtərəfli diqqət və qayğı göstərib və bu ənənələr bu gün də davam etdirilir.

Sonra Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

*Naxçıvan Dövlət Universiteti*
*Televiziya, mətbuat və ictimaiyyətlə*
*əlaqələr bölməsi*

# "Naxçıvan" Universitetində yenilik:
## *MBA üzrə yeni ixtisaslaşma yaradıldı*

"Naxçıvan" Universitetində MBA (Master of Business Administration) proqramı çərçivəsində "Biznesin idarə edilməsi" üzrə Ümumi təyinatlı yeni ixtisaslaşma yaradılıb. Bu barədə "Naxçıvan" Universitetinin Tədris şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Anar Abuzərli ətraflı məlumat verib. Bildirib ki, yeni ixtisaslaşmanın tədrisinə bu ildən etibarən başlanılacaq. Anar Abuzərli açıqlamasında qeyd edib ki, universitetin təqdim etdiyi MBA proqramının əsas üstünlüyü tələbələrə təcrübə yönümlü bilik və bacarıqlar qazandırmaq, eyni zamanda onları iş həyatına hazırlamaqdan ibarətdir. Artıq MBA proqramı üzrə təhsil almaq istəyən tələbələr "Naxçıvan" Universitetini rahatlıqla seçə biləcək. Həmçinin qeyd edilib ki, təhsilin davametmə müddəti ənənəvi magistr təhsil proqramına uyğun olaraq 2 il nəzərdə tutulub.

*"Naxçıvan" Universitetinin mətbuat xidməti*

# Naxçıvanın “Yeni era”sı



*Bu yaxınlarda Naxçıvanda fəaliyyətə başlamış “Yeni era” Uşaq və Gənclər Teatrı muxtar diyarımızda teatr sənətinin inkişafı istiqamətində atılmış mühüm addımlardan biridir. Bu uşaq-gənclər teatrı, eyni zamanda Naxçıvanda yaradılmış ilk müstəqil teatrdır. Teatrın yaradıcısı, Prezident mükafatçısı **Səyyad Məmmədov**la elə bu mədəniyyət kollektivinin yaranması və gələcək planları haqqında söhbət edib fikirlərini öyrəndik.*

Əvvəlcə onu diqqətə çatdıraq ki, Səyyad Məmmədov Naxçıvanda uşaq teatrının yaranmasında iştirak edən ilk aktyorlardan olub. Elə həmin dövrdən Naxçıvanda müstəqil teatr



yaratmaq fikrinə düşən müsahibimiz arzusunu bu il reallaşdırıb.

Müsahibimiz bildirir ki, bu teatrı yaratmaqda əsas məqsəd uşaqlarda interaktiv biliklərin aşılanması, xalq nağıllarını özündə ehtiva edən tamaşaları səhnələşdirmək, həmçinin onların intellekt səviyyələrinin inkişafına müsbət təsir göstərməkdir. Bununla yanaşı, teatr incəsənətin bir sahəsi olduğu üçün uşaqlarla ünsiyyətin qurulması baxımından da böyük əhəmiyyətə malikdir.

Səyyad Məmmədov onu da bildirdi ki, uşaqlarla yanaşı, valideynlər də tamaşalarda yaxından iştirak edirlər. Onlara da bu cür interaktiv tamaşalara övladları ilə birgə baxmaq xoş olur. Çünki interaktiv tamaşa düşündürücü olduğu üçün uşaqlar həmin anda aktyorlarla, həm də valideynləri ilə tamaşa haqqında dialoqda ola bilirlər. Eləcə də aktyorların sərbəstliyi, yaradılan imkanlar uşaqların əylənmələri üçün asudə vaxtlarının daha da səmərəli təşkilinə şərait yaratmış olur. İnteraktiv tamaşaların digərlərindən fərqi şou xarakterli əyləncələrin olması, sehrbazlıq nümunələrinin nümayişi, balaca tamaşaçıların həmin tamaşadan müxtəlif hədiyyələr qazanması və o hədiyyələri bir xatirə kimi saxlamaları teatrı onlar üçün daha yaddaqalan edir.

Həmsöhbətimizdən teatrın fəaliyyəti barədə ətraflı danışmasını xahiş etdik: – Uşaq və Gənclər Teatrı fərqli məzmunlarda tamaşalar hazırlamağa imkan verir. Xüsusilə mono, uşaq və böyüklər üçün nəzərdə tutulmuş tamaşalar hazırlayırıq. Yaradıcı heyət olaraq ssenariləri yazmaqda sərbəstik. Dövrün, günün tələbinə uyğun olaraq tamaşaçı ilə ayaqlaşmağa çalışırıq. Bununla bərabər, tamaşalara kiçik qəhrəmanlarımızı da dəvət edib onların marağına səbəb



olan “face art”dan (üzboyama) istifadə etmələrinə şərait yaradırıq. Bu zaman uşaqlar da özlərini tamaşanın qəhrəmanları kimi hiss edirlər.

Söhbətimizə ömrünün çox hissəsini teatr səhnəsinə həsr etmiş Prezident mükafatçısı ***Zəminə Məmmədova*** ilə davam edirik. İllərdir, peşəkar səhnələrdə rol alan Zəminə xanım qeyd edir ki, bu cür müstəqil teatr tamaşalarında iştirak etməsi onun üçün də bir yenilikdir. Təbii ki, bu işdə gənclərə dəstək olmaq, dəyərli məsləhətlərini bölüşmək onu təcrübəli aktrisa kimi çox sevindirir. Xüsusilə uşaq və gənclərlə bağlı tamaşaların hazırlanmasının gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynadığını xatırladır. Söhbətimizin bu yerində Səyyad müəllim bildirir ki, hazırda teatrda peşəkar aktyorlarla yanaşı, iki azyaşlı aktyor da iştirak edir. Böyüklərlə birgə səhnədə rol alan uşaqlardan biri orta məktəb şagirdi Cəbrayıl Səfərli, digəri isə dördyaşlı Hüseyn Məmmədovdur. Azyaşlı olmaqlarına baxmayaraq, səhnədəki bacarıqları tamaşaçıların marağına səbəb olur.

Müsahibimiz yeni teatrın fəaliyyəti üçün maddi-texniki bazanın zəif olduğunu da bildirir və qarşıya çıxan çətinliklərin zamanla həll olunacağına ümid edir. Hələlik isə teatrı uşaq və gənclərə sevdirmək üçün muxtar respublika çərçivəsində qastrol səfərlərinin təşkilini planlaşdırdıqlarını deyir. Eyni zamanda bu səfərlərin yeni istedadların teatra cəlb olunmasında da müəyyən rolu olacağına ümid edir. Qardaş



Türkiyə Respublikasına da belə qastrolların təşkilinin faydalı olacağını düşünür.

İlk tamaşanın bu il iyunun 10-da baş tutduğunu deyən həmsöhbətimiz növbəti tamaşanın böyüklər üçün nəzərdə tutulmuş Əli Əmirlinin “Bala-başa bəla” adlı ikihissəli epataj komediyası olacağını da bildirir. İyunun 26-da Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində nümayiş olunacaq tamaşanın uğurlu alınacağına da ümidli olduğunu söyləyir.

Bu fikirlərin təsdiqini premyeradan sonra söhbətləşdiyimiz balaca tamaşaçıların da dilindən eşitdik. Tamaşanın ilk izləyicilərindən olan ***Jalə Həsənli*** deyir ki, bu tamaşanı izləmək üçün valideyni ilə birgə Culfa rayonundan gəlib. Tamaşada olan personajları canlı izləmək, onlarla birgə gün keçirmək onun çox xoşuna gəlib. Digər söhbətləşdiyimiz balaca tamaşaçı isə ***Abbas Yusifov*** oldu. Balaca Abbas deyir ki, tamaşada keçirdiyimiz vaxt ərzində tamaşanı izləməklə yanaşı, həm də çox əyləndik. Tamaşanı bu cür canlı izləmək televizor və internetdən izləməkdən daha maraqlı gəldi. İstəyirik ki, belə tamaşalar davamlı olsun.

*Biz isə yeni teatr kollektivinə işlərində uğurlar arzu edib, bu sahədə görülən işlərin uşaq və gənclərin mədəni səviyyəsinin yüksəlməsində mühüm rolu olacağını müsahibimizin diqqətinə çatdırırıq. İnanırıq ki, “Yeni era” yenilikləri ilə gələcəkdə hər birimizi sevindirməyi bacaracaqdır.*

**Aidə İBRAHİMOVA**

## Karateçilərimiz beynəlxalq turniri uğurla tamamlayıb




*Gürcüstanın Batumi şəhərində “International Batumi Open” beynəlxalq karate turniri keçirilib. Yarışa 10 ölkədən 250-yə yaxın idmançı qatılıb.*

Turnirə qatılan muxtar respublika karateçiləri Azərbaycanı uğurla təmsil etməyə müvəffəq olub. İdmançılarımız 5-i qızıl, 3-ü gümüş və 4-ü bürünc olmaqla, ümumilikdə, 12 medal qazanıblar.

Təmsilçilərimizdən ən yaxşı nəticə Nizami Orucova məxsusdur. O, 10-11 yaşlılarda 2 qızıl, 1 gümüş medal qazanıb. Qafar Hüseynov, Əli Bayramov, Xədicə Bayramova da qızıl medal sevinci yaşayıb, eləcə də digər idmançımız Nərgiz Həsənli ilə birgə müxtəlif əyarlı medallar əldə ediblər.

## Stolüstü tennis yarışının qalibi məlum olub

Yaşı 18-dən yuxarı olan həvəskar idmançılar arasında stolüstü tennis üzrə “Heydər Əliyev İli”nə həsr olunmuş muxtar respublika açıq birinciliyi keçirilib. İlham



Əliyev adına Olimpiya İdman Kompleksində reallaşan yarışda onlayn qaydada qeydiyyatdan keçmiş idmançılar iştirak edib.

İştirakçılar olimpiya sistemi üzrə mübarizə aparıb. Nəticələrə gəlincə, İlqar İbrahimov yarışı qalib kimi tamamlayıb. Elmar Süleymanlı ikinci, Sənan Məmmədov isə üçüncü olub. Gülayə Cəfərova qadınlar arasında birinci yerə layiq görülüb.

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən yarışın sonunda ilk üç yerin sahibləri diplom və hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Antibiotiklərdən reseptsiz istifadə ciddi fəsadlara yol açır

## *Çalışaq ki, antibiotiklər mikroblar qarşısında deyil, mikroblar həmişə antibiotiklər qarşısında aciz qalsın*

*Yaxın günlərdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilən “Antibiotiklərdən reseptsiz istifadə yolverilməzdir” adlı konfransından sonra antibiotiklərin insan sağlamlığında yaratdığı fəsadlarla bağlı həkimlərimiz ilə həmsöhbət olduq.*

Əziz Əliyev adına Uşaq Xəstəxanasının həkim pediatrı ***Nuriyyə Həsənova*** bildirdi ki, bizə müraciət edən şəxslərin çoxu uşaqlarda infeksiya və ya yoluxucu xəstəliklərlə bağlı olur. Müayinə zamanı çalışırıq ki, xəstələrimizi müəyyən qədər antibiotik istifadəsindən uzaq tutaq. Bəs günümüzün aktual mövzusu olan antibiotik nədir? Antibiotik orqanizmə daxil olan mikrobları öldürən və ya onların çoxalmasının qarşısını alan kimyəvi maddələrdir. Antibiotiklər aşkar edilənə qədər infeksion xəstəliklər milyonlarla insanın ölümünün əsas səbəbi idi. Sonrakı illər müşahidə olunan “antibiotikə müqavimət” problemi səbəbindən antibiotiklərin say və növlərinin artması həm də özü ilə sözügedən preparatlardan lüzumsuz yerə və təhlükəli istifadəni gətirmişdir. Hər növbəti il siyahıya yeni antibiotik əlavə olunsa da, “ağıllı antibiotik istifadəsi” qaydalarına əməl olunmasa, hər dəfə daha yeni bir antibiotikə ehtiyac olacaqdır. Belə ki, günümüzdə reseptlərdə ən çox istifadə olunan dərmanlar siyahısına baxıldıqda ağrıkəsicilərdən sonra ikinci yerdə antibiotiklər dayanır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, bu gün dərmanların 50 faizdən çoxu



lüzumsuz yazılıb satılmaqdadır. Xüsusilə də antibiotiklərin 30-65 faizi yanlış məqamlarda və lazımsız dozalarda yazılıb, istifadə olunur. Reseptlərə 73 antibiotikdən yalnız 1-2-si düzgün təyin edilir. Araşdırmalara əsasən yazılan antibiotiklərin 50 faizdən çoxu tənəffüs yolları infeksiyalarında istifadə olunur. Həkimin sözlərinə görə, uşaqlarda düzgün dərman seçiminə xüsusi diqqət etmək lazımdır. Orqanizmdə olan xəstəliklərdən sorulma, yayılma, metabolizm, bədəndən xaric olması uşaqlarda böyüklərdən bir qədər fərqlənir. Xəstəyə antibiotik təyin etmək lazımdırsa, xəstənin yaşına, böyrək və qaraciyərinin funksiyalarına, genetik və metabolik xəstəliklər keçirib-keçirməməsinə, infeksiyanın yoluxma mühitinə, immun sisteminin vəziyyətinə, xroniki xəstəliklərlə üzləşib-üzləşməməsinə, istifadə etdiyi dərmanlara, əvvəllər hər hansı bir antibiotikə qarşı həssaslığın olub-olmamasına mütləq fikir verilməlidir. Nuriyyə həkim uşaqlarda antibiotiklərin hansı ağırlaşmalara səbəb olacağından da söz açdı. Bildirdi ki, allergik reaksiyalar – dəridə səpkilər, qızartı, qaşınma, öskürək, nəfəsalmada çətinlik ən çox bilinən və qorxulu əks reaksiyalardır. Antibiotik istifadəsi ilə meydana çıxan allergik reaksiyaların ağırlıq dərəcəsi adi səpkilərdən anafilaktik şoka qədər dəyişə bilər. Əksərən penisillin istifadəsi ilə meydana çıxan bu reaksiyalar zamanı dərman istifadəsi dayandırılmalıdır. Bunun həzm sisteminə əlavə təsirləri də mövcuddur. Bunlar ağız yaraları, dodaqlarda çat, diş rənginin dəyişməsi, ürəkbulanma, qusma, qarın ağrısı, bağırsaq mikroflorasını dəyişməklə, həm də metabolik dəyişikliklərə gətirib çıxarmaqla ishala səbəb olur. Son illər aparılan araşdırmaların nəticələrinə görə, antibiotiklərin insanın normal bağırsaq mikroflorasını dəyişdirib, faydalı mikrobları öldürdüyü və ən əhəmiyyətli qorunmamız olan mukozal immunitetimizi zəiflətdiyi aşkar olunub. Xüsusilə də influenzaya bənzər qripal infeksiyalara qarşı immun sistem aşağı düşür və normalda 3-5 günə keçən infeksiyaların uzanmasına və ağır keçməsinə səbəb olur. Buna görə də tez-tez antibiotik istifadə edən uşaqlar mukozal infeksiya dediyimiz sinusit, otit, pnevmoniya, faringit və ishala daha tez-tez tutulurlar. Bir sözlə, bağırsaqlarda probiotik dediyimiz çoxlu sayda faydalı bakteriya vardır, bu probiotiklər həzmə kömək edir, K, B vitaminlərini sintez edir, immun sisteminin dəstəkləyərək, xərçəngə qarşı və zərərli mikrobların çoxalmasını əngəlləyərək xəstəliklərdən qoruyur. Lazımsız şəkildə bir antibiotik qəbul etdikdə belə bu probiotiklər 20 faiz hallarda məhv olur. Bu probiotikləri təkrar bağırsaqlara geri qazandırmaq, ən düzgün qidalanmada belə, təəssüf ki, 2 il ərzində mümkün ola bilir. Körpə ikən antibiotik istifadəsi həyatın sonrakı vaxtlarında probiotik itkisinə səbəb olduğu üçün uşaq orqanizmi infeksiyalara qarşı həssas hala gəlir.

Nuriyyə Həsənova valideynlərə müraciət edərək bildirdi ki, övladında yuxarı tənəffüs yolu xəstəlikləri, öskürək, burun axıntısı, soyuqdəymə halları kimi virus mənşəli xəstəliklər varsa, valideynlər həkim məsləhəti olmadan antibiotik alıb içirməyi düşünməməlidirlər. Çünki bu hallarda antibiotikin orqanizmə zərərdən başqa təsiri olmayacaq. Həkim qeyd edir ki, antibiotiklərə temperatursalıcı, ağrıkəsici, öskürək əleyhinə preparat gözüylə baxmaq düz deyil. Həkim antibiotik təyin etsin deyə təkid etmək olmaz. Bəzi bakterial xəstəliklər vardır ki, onları yalnız antibiotiklə müalicə etmək olur. Biz isə lüzumsuz yerə antibiotikdən istifadə edərək mikrobların antibiotiklərə qarşı müqavimətini artırsaq, doğrudan da, antibiotik lazım olan belə xəstəlikər zamanı bu tibbi maddə mikroblara təsir etməyəcək. Bir sözlə, çalışaq ki, antibiotiklər mikroblar qarşısında deyil, mikroblar həmişə antibiotiklər qarşısında aciz qalsın.

Antibiotiklərin yetkinlik yaşına çatmış insanların orqanizmində yaratdığı problemlər haqqında həkim-terapevt ***Gülən Allahverdiyeva***nın da fikirlərini öyrəndik. O dedi ki, böyüklərin orqanizmi uşaqlardan fərqləndiyi üçün xəstəliyin özünü büruzə verməsi də fərqlənir. Bəzi hallarda bu da insan bədənində ciddi allergik reaksiyalar meydana gətirə bilər: allergik reaksiyalar yalnız yüngül bir qaşıntı, ya da dəri problemi şəklində, bəzən daha ağır ola bilər. Bu da qaraciyərin funksiyalarını pozmağa gətirib çıxarar. Qaraciyərdə problemi olan insanlara antibiotiklərdən uzaq durmaq tövsiyə olunur. Antibiotikdən yanlış istifadənin digər fəsadlarından biri böyrək çatışmazlığına yol aça bilməsidir. Çünki böyrəklər üzərində toksik təsirlər yaradaraq orqan çatışmazlığına təkan verir. Kəskin böyrək çatışmazlığının ən azı beşdə biri istifadə edilən dərmanlar səbəbiylə inkişaf edir.

Oxucuların nəzərinə onu da çatdıraq ki, bundan sonra hər bir vətəndaş öz sağlamlığı naminə həkim məsləhəti olmadan reseptsiz antibiotik əldə edə bilməyəcək.

**Bülbül QULİYEVA**
**Aysel YUSİFZADƏ**

### *İtmişdir*

Babək rayonunun Vayxır kəndində yaşamış Həsənov İbrahim Qəzənfər oğlunun adına olan JN-005$^{B}$ inventar nömrəli, 10313018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Böyükdüz kəndində yaşamış Quliyev Baxşəli Qasım oğlunun adına olan JN-41$^{A}$ inventar nömrəli, 10300048 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 392